# Vətəndaşların nəzərinə!

Azərbaycan Respublikasının Baş Prokuroru, I dərəcəli Dövlət Ədliyyə müşaviri cənab Zakir Qaralov tərəfindən 26 avqust 2016-cı il tarixdə saat $10^{00}$-da Balakən Rayon Prokurorluğunun binasında Balakən, Zaqatala, Şəki, Qax, Qəbələ və Oğuz rayonlarında yaşayan Vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərə dair qəbulu keçiriləcəkdir.

Qəbələ rayonundan qəbula gəlmək istəyən vətəndaşların rayon prokurorluğunda həftənin bütün günləri saat $09^{00}$-dan saat 20-dək, əvvəldən qeydiyyatı aparılır.

Vətəndaşların qəbulun keçiriləcəyi gün Balakən rayonuna getmələrinin təmini üçün nəqliyyat vasitələri ayrılacaqdır.

**QƏBƏLƏ RAYON PROKURORLUĞU.**

# Müdrik sözlər toplusu xəzinəsindən

✦Həsrət də özü bir vüsaldır, vüsal isə həsrətin unudulmazlığıdır.

✦Olmaq üçün olanlar və mövcud labüdlər yerlərində sayarlar.

✦Düşüncələrin dəyəri var, fikirlərin isə qədəri.

✦Çörəyin para olsa da, hörmətin bütöv olsun.

✦Suyu içməli olan bulağa gedən cığırı basmaz.

✦İbadətgaha gələnləri, ibadətgah geri döndərə bilmədiyi kimi, heç kəsi də əqidəsindən döndərə bilmir.

✦Sevməyi bacarmayan etibarsız könül xarabadır.

✦Bu işıqlı dünyada etməsən əgər səbr,
Sənin üçün hər gün olar, qaranlıq bir qəbr.

✦Həyat tikandan bal yalamaq kimi bir şeydir.

✦Mənasız həyat yoxdur, həyasız yaşayan mənasız insanlar var.

✦Alın yazısı hər kəsin öz bacardığı əməlindədir.

✦Zəka sənin yaşadığın həyat yolunda daim gur yanan şəfalı bir şamdır.

✦Sağ ikən itməkdən qorxma, diri ikən itirilməkdən qorx.

✦Adam çəkisini itirər, ancaq etibarını itirməz.

✦Adamın qol-qanadı qırılsa da ümüdü qırılmaz.

✦Paxıla paxıllıq et ki, paxıl olmayasan.

✦İnsanlar təəcüb doğurar, damlar isə maraq.

✦Kasıba yetim deyərlər, arığa qoca.

✦İnsanlar baxa-baxa adiləşir, adamlar isə görə-görə kamilləşir.

✦Adını yaşat ki, sən də yaşadığın adda yaşayasan.

✦Nəfs həyatın və halallığın düşmənidir.

✦Tapanda şükr elə, tapmayanda isə səbr, çünki səbr ümidin qırılmazlığıdır,

✦Kamil baş yaşamağı bacaran üçün bir qaladır, cahil baş isə yaşamağı bacarmayanlar üçün bir bəladır.

✦Bir kəsin xislətində yoxdursa paxıllıq, nəfs və haram, həmişə cavan görünər qocalsa da belə.

✦Kiminsə bir az tükü
yoxdursa başında,
Həm qaşında, hətta
yetmiş yaşında,
Nə görüb, götürə bilər,
ömrün son yaşında.

✦Elmin dərəcəsi alimlikdir, adamlığın dərəcəsi isə kamillik.

✦Müdrik sözlər satılmır, ancaq ala bilənlər üçün hədiyyədir.

✦Həyatını yaşaya bilməyənlərin dünyası da yoxdur.

✦Etibarsızlar yuva bağlamayan tənha quşdurlar.

✦Xoş günlərini şükürlə, çətin günlərini isə səbrlə yaşa.

✦Bayquşu qartalın yuvasına qoysan, koğuş deyil, deyə bəyənməyəcək.

✦Yaşatmaq yaşamaq qədər gözəldir.

✦Qəhrəman bir dəfə ölər, qorxaq min dəfə.

✦Fitri istedad və arzular doğulmaz, həm də qocalmazdır.

✦Üç gülüş var: fərəhli, kinayəli və şit.

✦Büdrəyən atın başına qızıldan yüyən taxsan belə faydası yoxdur.

**Teymur RƏHMANOV,**
**Tüntül kəndi.**

# Zəhər və dil

Uzun illər bundan əvvəl Çində Li-li adlı bir qız ərə gedir, əri və qayınanası ilə birlikdə yaşamağa başlayır. Lakin qısa zaman keçdikdən sonra qayınanası ilə keçinməyin çətin olduğunu anlayır. Xasiyyətləri bir-birinə bənzəmədiyi üçün tez-tez aralarında söz-söhbət olur. Bu, Çin adət-ənənəsinə uyğun olmadığı üçün ətrafdakı insanların qınağına səbəb olur. Bir neçə aydan sonra gəlin-qayınana davalarının hökm sürdüyü ev ər üçün də cəhənnəmə çevrilir. Artıq buna bir əlac etməyin lüzumunu düşünən gəlin atasının köhnə dostlarından olan bir əttarın yanına gəlir və dərdini ona danışır.

Yaşlı adam onun üçün bitkilərdən bir iksir hazırlayır və bunu 3 ay ərzində hər gün qayınanasının yeməyinə az-az qarışdırmasını məsləhət görür. Zəhər az-az veriləcək, bununla da qayınananı gəlinin öldürdüyü bilinməyəcəkdi.

Yaşlı adam gənc qadına heç kəsi və ərini şübhələndirməmək üçün qayınanasına qarşı xoş rəftar etməsini, ona ən gözəl yeməkləri bişirməsini tapşırır.

Sevinərək evə qayıdan Li-li yaşlı adamın dediklərini eyniylə həyata keçirməyə başlayır. Hər gün ən gözəl yeməkləri bişirir qayınanasının boşqabına da az-az zəhər damladırdı. Heç kimi şübhələndirməmək üçün də ona qarşı xoş davranırdı. Çox keçmədən evdə hər şey dəyişir, qayınana da gəlini öz qızı kimi sevməyə başlayır. Evdə sülh hakim idi.

Az bir zamandan sonra gəlin özünü ağır bir yükün altında hiss etdi. Etdiklərindən peşmanlıq duyaraq əttar tükanına yollandı. Yaşlı adamdan qayınanasına verdiyi zəhəri onun qanından çıxarması üçün bir iksir hazırlanmasını istədi. İxtiyar yaşlı gözləriylə yalvaran Li-liyə baxdı və gülməyə başladı.

—Qızım, sənə verdiklərim vitamindən başqa bir şey deyildi. Əsl zəhər sənin dilində və beynində idi. Sən qayınanana qarşı xoş rəftar etdikcə, o zəhər yox oldu, yerini sevgiyə buraxdı. Bununla da siz həqiqi ana-bala oldunuz—dedi.

**Hazırladı:**
**Aslan CƏLİLOV.**

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixdə 19 saylı qərarla Vəndam qəsəbə kənd sakini **Alıyev Məcid Maxsud oğlunun və ailə üzvlərinin** adına verilmiş JN: 273 A nömrəli (kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhalətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 dekabr 1997-ci il tarixdə 27 saylı qərarla Soltannuxa kənd sakini **Həmidov Təhmiraz Xəlil oğlunun** adına verilmiş JN: 2259 nömrəli (kodu 40602038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi QİŞ tərəfindən **Zəkiyeva Nəsibə Zəki qızına** məxsus 1997-ci il tarixli Dövlət Qeydiyyat nişanı 90 FN 831olan NİSSAN MAXİMA markalı minik maşının texniki Pasportu itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 saylı qərarla Bum qəsəbə (kənd) sakini **Hacıyev Hacı Süleyman oğluna** və **Hacıyeva Nazilə Cəmaləddin qızına** verilmiş JN 463 F nömrəli (kodu 40800038) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Bum qəsəbə (kənd) sakini **Hacıyev Araz Hacı oğlunun** adına 07 avqust 2013 il tarixdə AA 000044 nömrəli **Torpaq sahəsinin planı və ölçüsü** (reyestr № 406013013172) və 12 avqust 2013-cü il tarixdə seriya RX № 0232496 **Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət reystrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 19 dekabr 2008-ci il tarixdə Hacallı kənd sakini **Əzimova Tutu Əzim qızının və ailə üzvlərinin** adına verilmiş MH 0012329 nömrəli **çıxarış** (reyestr № 406013005905, qeydiyyat № 1908006935) itdiyi üçün etibarsız sayılır.

---

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Ərazi İdarəsi tərəfindən 10 yanvar 2015-ci il tarixdə Zarağan kənd sakini **Əliyev Rəşadət Nizaməddin oğluna** verilmiş seriya RX 0562438 nömrəli (reyestr № 406013026992, qeydiyyat № 1914010342) **Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 fevral 2001-ci il tarixdə 03 saylı qərarla Qəbələ şəhər sakini **Cabbarov Şahin Yusif oğluna** verilmiş JN: 2730 A nömrəli (kodu 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixdə Vəndam qəsəbə (kənd) sakini **Salehov İkram Şükür oğlunun** adına verilmiş JN: 1713 F (kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Bələdiyyəsi tərəfindən **Gərayzadə Urya Mahmud qızına** verilmiş torpaq sahəsi satılması barədə 2013-cü il 30 avqust tarixli 07 nömrəli **qərar** itdiyi üçün etibarsfız sayılır.

### DÜZƏLİŞ

Qəzetimizin 11 avqust 2016-cı il tarixli sayının 8-ci səhifəsində Mıxlıqovaq kənd sakini **Hacıyev Nihat Məzahir oğlunun** adından verilmiş elan belə oxunmalıdır: «VAZ 2107» markalı 36 BF 585 Dövlət nömrə nişanlı avtomaşının **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

*Məsul katib*
*N. R. Atakişiyev.*

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1800.
Oxucu məktubları geri qaytarılmır.